# Qazaxıstan parlamentinin nümayəndə heyəti Fəxri və Şəhidlər xiyabanlarını ziyarət edib









Qazaxıstan Respublikası Parlamenti Məclisinin Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri xanım Aygul Kuspanın rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 13-də Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə gül qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, “Əbədi məşəl” abidəsinin önünə gül dəstələri qoyublar.

Daha sonra jurnalistlərin suallarını cavablandıran xanım Aygul Kuspan səfər proqramı çərçivəsində Qazaxıstan parlamentinin nümayəndə heyəti ilə birlikdə işğaldan azad edilmiş Şuşa şəhəri barədə təəssüratını bölüşüb. Komitə sədri Şuşada aparılan nəhəng tikinti-quruculuq işlərinin miqyasından heyrətləndiklərini bildirib. O qeyd edib ki, qısa müddətdə belə miqyasda işlərin görülməsi üçün maddi resurslardan əlavə, Vətən sevgisi lazımdır. İnanırıq ki, bu hisslər qarşıya qoyulmuş vəzifələrin həll olunması üçün başlıca impulsdur.